# Bəxtiyar Vahabzadənin poeziyasında kamil şəxsiyyət problemi

**İnsan - dünyanın xaricində yaşayan varlıq deyil... "İnsan - İnsan dünyasıdır, dövlətdir, cəmiyyətdir" - bu, fikir dahi K.Marksa aiddir, bu gün də dəyərini itir-məmişdir. Qalır insanın ailədə və cəmiyyətdə tərbiyəsinə. Şəxsiyyətin yetişməsin-də əsas amil münasibətlərin qurulmasıdır: mənəvi zən-ginlik, sərvətlərin maddi-ləş-məsi və düşüncələrin emosionallığı və sairin öz yerini tutmasıdır.**



Allahverdi Eminov

*(Əvvəli ötən sayımızda)*

Ədəbiyyatda, o cümlədən, poeziyada şəxsiyyət və mühit probleminin konseptual li-rik təsviri müxtəlif zaman - vaxt üçün xarak-terik səciyyə daşımışdır: Dövr və Məkan hü-dudları; mahiyyətli ziddiyyətlər; ictimai - so-sial və fərdi - şəxsi maraq-lar. Bu problem şəxsiyyətin həyat tərzinin poeziyada bir sıra əxlaqi sərvətlərin, so-sial ümumiliyin tərbiyəvi vəzifəsini, habelə mənəviyyatı şərtləndirir, poetik müstə-viyə çıxarır. Bu tezisdən çıxış edərək Bəxtiyar Vahabzadə bir çox şeirlərin-də ("İn-san", "Ömrün payızı", "Ömür") oxu-cuya poeziyadan zövq almaq ehtiyacının ödə-nilməsilə yanaşı, yeni fikirlər aşılayır. Bu və digər şeirlərində şair ömrün sonsuzlu-ğu-nu arzulayır: bu ömür harada, hansı məqam-da bitəcəkdir, bununla həyatın əvəz-sizliyi özünü diqtə edir: "Ömrün payızı" şeirini ya-zanda 35 yaşında idi və heyif-silənir ki... "dövran tez dolanır, illər tez gəlir ömrün pillə-ləri fəsillərlə həmahəng səslənir". Deməli, ömrün payızı yaxınlaşır:

*Ömrün payız fəsli sıxdı əlimi,*
*Yoxsa qocalıram mən yavaş-yavaş.*
*Payızda yarpağa xal düşən kimi*
*Düşür saçlarıma dən yavaş-yavaş.*

*Ağaclar soyunur, yer xəzəllənir,*
*Fikir dumanlanır, gözlər zillənir,*
*Güllərin üstünə enən tək enir*
*Mənim gözlərimə çən yavaş-yavşa.*

*Soyuyur havalar, soyuyur bütün,*
*Qısalır, qısalır, günlər günbəgün.*
*Axı, yaxınlaşır qürubu ömrün,*
*Əyilir dağlardan gün yavaş-yavaş.*

*Saralır get-gedə çöl, çəmən, çayır,*
*Könül hər saatı ömürdən sayır.*
*Bir səs qulağıma hey pıçıldayır:*
*Bəxtiyar, göylərdən en yavaş-yavaş!*

Bu şeir hər bir oxucunu dərindən-dərin düşündürməyə bilməz, ömrün payı-zına "a-parmaya" bilməz. Və insanın sonu əl boyda kağıza yazılmış "Nekroloq"dur. "Həyatın ən qısa mənzərəsi, o cümləyə sığışan" mətn! Mərhum bir an özü barədə yazılmış nekrolo-qu oxusaydı ürəyindən nə keçərdi? O keçər-di ki, həyatdakı əməl-ləri nə üçün nekroloqa düşməmişdir.

***Hər kəsin arzuları çoxdur əməllərindən***
***min kərə, milyon kərə***
***Ürəkdəki arzular əməllərindən əzəldir.***
***Eləmək istədiyim, mənim elədiyimdən***
***həm çox, həm də gözəldir!***

Şairin tövsiyəsi isə konkretdir:

***Eləysə... Nekroloqda ömür tam olsun deyə***
***Əməllərlə bərabər ən gözəl arzular da***
***niyə yazılmır, niyə?!***

B.Vahabzadə şeirlərində (ümumən poe-ziyasında) - bədii konteksdə obraz-ların di-daktik davranışının təhsilliyini şüurun ümumi strukturunda mücərrəd təsvr etmir, "İztirabın sonu", "Etiraf", "Atılmışlar", "Təzadlar" poe-malarında pedaqoji prosesə enir, onun peda-qoqluğundan əlavə, tərbiyənin funksiyasına toxunur. Yeri gəlmiş-kən "İztirabın sonu" B.Vahabzadənin ilk yaradıcılığı dövrünün məhsuludur və 1956-cı ildə yazılmışdır ("Ə-sərləri"nin I cildində verilmişdir). "İztirabın so-nu" poeması S.Vurğunun "Aygün" əsərinin təsirindən yazılmışdır, - hökmünü ver-məz-dim; ümumiyyətlə, ötən əsrin 50-60-cı illərin ailə - məişət mövzusu poeziya-mıza "ayaq" açdı, bu da təbii ki, sosial - mənəvi mühitin diqtəsiydi (Qabil "Meh-parə", H.Həsənzadə, "Kimin sualı var?" və digər şairlər bu mövzu-ya toxunmuşlar). B.Vahabzadənin bu poe-masında biz Şahnaz və Hatəm obrazlarının taleyilə qarşı-laşırıq.

"Proloq"da müəllifin oxucularla didaktik müraciəti səslənir, adamların bir növ həyata baxışı: həssaslığı, hadisələrə reaksiyası, incə duyğusu təsvir olunur. Bə-li, yaşadığımız hə-yatın tərbiyə etdiyi insanların təbiəti belədir. Bəli, dünyanın işidir bu, hansı ki, bu dünyaya etibar yoxdur, bir gün isə:

***Həm sevinc var, həm də qəm sarı simdə,***
***Nəşədən yaranır bəzən ələm də.***
***Həm çörək yetirir insana, həm də -***
***Yeyir insanları yer bu dünyada!***

Şair poemada bir suala cavab axtarmaq istəmişdir: "cütləri" birləşdirən sevgi yoxsa? Və bunlar ailə qurarsa qoşa yol gedə bilərmi? Şair suallara cavab verməyə tələsmir. İlk misralarda oxucu məsələni sezir və qəhrə-manların xasiyyətlərindən şübhələnir. Söhbət "Otello" tamaşasında ərlə arvadın duyum tər-zindən başlanır. Hatəm musiqiçidir, bəstəkar-dır, Şahnaz adi qadındır, sadə ailədə doğu-lub tərbiyə almışdır.

Hatəm səhnədə Otellonun sevdiyi Dezdi-monanın faciəsini yaşayır. Sanki o, təkdir, Şahnazsızdır.

**Səhnəyə zilləyib gözünü oğlan,**
**Şeir Otellonun hər kəlməsini,**
**İsti cərəyan keçir damarlarından,**
**(Eşitmək mümkünmü onun səsini?)**

"Otello sindromu"nun mənimsənilməsinə münasibət başqadır, insanın öz ruhi aləmini anlaması, onun üzərinə hökmran olması tər-biyədən çox asılıdır, bu-rada ixtisasın da rolu yox deyil. Cəmiyyətin və insanın təkmilləş-məsi vacib şərtdir. Həyatda bərkdən - boş-dan çıxmayan, sevginin həsrətini duymayan Şahnazdan nə gözləmək olar? Hatəm bəlkə də Şahnazı bu cür təsəvvür etməzdi, həssas-lığına se-vinərdi, lakin:

**Neçin mənim kimi kədərlənmədi**
**Şahnaz Otellonun faciəsinə?**
**Neçin: "Bu, oyundur, səhnədir",- dedi.**
**Hələ bir üstəlik güldü də mənə?!**

Hatəmə bu hal çox mənfi təsir edir və ona haqq qazandırırıq. Ona görə ki, "qəlbindəki döyüntüləri" anlamamışdır.

**Bəs başa düşməzmi bunu Şahnazım?**
**Başa düşməyənə demək nə lazım?**

Yenə xırda mübahisə, Şahnazın: "demək istəyirsən mən yas saxlayım?" - tə-nəsi Ha-təmə pis təsir göstərir, özünə ıztirab gətirən suallar verir:

**Düşündü: "Sevgilim qışa yaz deyir,**
**Demək o, mənə də oyunbaz deyir.**
**Bəs necə olacaq bu işin sonu?**
**Mənim ürəyimdə daşan duyğunu**
**O, öz ürəyində daşıyacaqmı?**
**Hissimlə, duyğumla yaşayacaqmı?**

Suallar labirintində Hatəm hey çapalayır, Şahnazı onu başa düşməkdən xeyli uzaqdır, taleyi belə gətirməməliydi. O, ötən illərə qayı-dır, Şahnazı sevən çağlarına. Şairin ricəti.

**Bəxtini bu qızın üzündə gördü.**
**Evlərinə qədər onu ötürdü.**
**Gah irəli keçdi, gah dala qaldı,**
**Heyrətdən gözləri açıla qaldı.**

Qərarı isə qətidir: "O gözəl mənim ola-caq", - Hatəmin sözü birdir, hər kəs ona məsləhət verə bilməz, onun xarakter cizgilə-rilə tanış oluruq, onun üçün orta hal yoxdur, ya nifrət etmiş, sevmiş, ya da başını bəlaya salmışdır.

***Boğazdan yuxarı o, gülməmişdir,***
***Gülüşü ağzından tökülməmişdir***
***Ya ürəkdən gülmüş, susmuşdur, ya da***
***Ürəkdən ağlamış ağlayanda da...***

Ərinin belə xarakteri Şahnazda yaxşı təəssürat yaratmır, ata evini yada salır.

Hatəm hələ Şahnazın hisslərini duymaq-dan uzaqdır, yalnız yaratmaqdır ar-zusu.

Şahnaza haqq qazandırmağa dəyər, çün gənc qadının da hissləri var, əriylə danışıb - gülməli, gözəlliyinin, qadınlığının təravətini ona ərmağan etməlidir. Gənc qadının məx-susi rapsodiyaları əri tərəfindən qiymətləndir-məlidir. Bu yoxsa...

***Hatəm özünü yalnız bir sənətkar sanırdı,***
***Sənətini, eşqini Şahnaza qısqanırdı...***
***Elə bilirdi yalnız, sənətdədir hər hikmət,***
***Sənətdədir gözəllik, insanlıq və məhəbbət!***
***Sənəti anlayanlar başa düşər hər şeyi -***
***Onun ürəyindəki sənətkar xudbinliyi***
***Qapadı gözlərini,***
***Anlamadı Şahnazı, Şahnaz da öz ərini.***

Poemada Hatəmə bəzən haqq qazandır-mağa dəyər, bir musiqiçi kimi özünə, sənəti-nə aludə olur, hətta gənc arvadını belə, unu-dur. Və yeri gələndə hisslərindən qopur, özü-nə qayıdır, özünə sual verir: Mən axı, Şahna-zı sevib evlənmişəm, bəs sə-bəb nədir. O da, mən də iztirab içində yaşayırıq. Olur ki, o, məni başa düşmək istə-mir, mən onu. Belə hallarda oxucu da sualları qarşısında qalır: Həyatda "cütlər" əzəldən bir-birini anlama-dan, ötəri hissə qapılmadan ailə qurmamalı-dır. Fikrimcə, va-cib deyil hər ikisi oxumuş ol-sun, savadlı olsun. Əsas odur, xüsusilə, qa-dın gənc əri-nin ilk gündən ruhunu "tutsun", "kaprisi" ilə yola getsin. Davranışın özünə xas ya-zılmamış qanunları var, həyatın "müdrik təcrübəsi" intuitiv mənimsənilməlidir, insanın tərbiyəsi buna cavab verməlidir. Ər qadınından ən yüksək zövq almalı, onun şə-rəfini qiymətləndirməyi bacarmalıdır. Qadın isə ərinin sənəti ilə bağlı ça-lışmasına şərait yaratmalıdır. Qarşılıqlı anlaşma ilə qadın özünifadə etməməlidir. Poemada Şahnaz hələ Hatəmin sənət idealına cavab vermək üçün yetişməmişdir, bəlkə hələ də uşaqlığın-dan ayrılmamışdır, Hatəm pıçıldamaqda haqlıdır: Amma ümid-lidir baxmayaraq: "Yox, başqa mayadan yoğrulmuşuq biz ", - düşü-nür.



*(B.Vahabzadə - 100)*

Bir haşiyə: B.Vahabzadənin "İztirabın so-nu" poemasının dəyərini azaltma-maq şərti-lə, baxmayaraq müəllif işarə vurur:

**Şahnazsa yan otaqda**
**"Aygün"ü varaqlayır, - deyir.**

Mən Əmirxanla Hatəmi müqayisə etməz-dim. Əmirxan qadını Aygünü qıs-qanır. Zid-diyyətlər, ailə konfliktləri də buradan başlayır və insan zəkası və mənəvi harmoniya pozu-lur. S.Vurğun Əmirxanın öz tələbatlarına mü-vafiq hərəkət etmə-sini, öz hisslərinə üstün-lük verməsində ictimai münasibətlərin xarak-terini nəzərə almışdır. Bu isə şəxsi mənafeyi, insanın yaradıcılıq potensialını reallaşdırır. Ha-təm də gənc qadınını unudaraq öz sənə-tinə qapanır. Əlbəttə, Şahnaz hələ çox ca-vandır, ana olmamışdır. B.Vahabzadə filosof deyildi və öz qəhrəmanının "sxemini çəkmə-mişdi". Hatəmin də Əmirxan kimi poemanın qəhrəmanı olaraq mənəvi dav-ranışı dinamik şəkildə inkişaf etməliydi. Hatəm cəmiyyətə yenicə atılmışdır, ailə qurmuşdur, özündə yüksək əxlaqi məziyyətlərin ilk elementlərini hələ mənimsə-məmişdir.

***(Ardı var)***